

...Onun haqqında heç vaxt keçmiş zamanda danışmırıq. Heydər Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, respublikamızın çiçəklənməsi və dünyaya inteqrasiyası sahəsində həyata keçirdiyi möhtəşəm işləri, təkrarolunmaz fəaliyyəti ilə hər birimizin qəlbində bu gün də yaşayır, sabah da yaşayacaq.

Diqqətinizə verdiyimiz şeirə bu mənada yalnız bir şair qəlbindən süzülüb gələn həzin duyğu kimi deyil, həm də ümumxalq məhəbbətinin təzahürü kimi baxmaq lazımdır.

# Ölümsüz həyat

*Poemadan bir parça*

*Yaxşı ki, dünyada Heydər var idi...*
*Heydərin adıyla yaşadı Vətən.*
*Heydər dünya boyda bir Vətən oldu,*
*İndi Heydər ilə qoşadır Vətən.*

*Yaxşı ki, dünyada Heydər yaşadı,*
*Dünya genişləndi o doğulan gün.*
*Xalqa bağışladı o öz ömrünü,*
*Xalqı zaman-zaman yaşatmaq üçün!*

*Düz səksən il sonra yer, göy ağladı,*
*Bir ağır yara da aldı kainat.*
*Matəm libasına büründü dünya,*
*Getdi aramızdan ölməz bir həyat.*

*Düz səksən il sonra onun yoxluğu,*
*Sağalmaz dərd oldu ürəyimizə.*
*Bir Günəş parladı, sönmədi fəqət,*
*Təsəlli veririk öz-özümüzə.*

*Onsuz keçən günlər küsəcək bizdən,*
*Ona pay vermədik öz ömrümüzdən.*
*Amansız itkilə barışmaq olmur,*
*Onu soruşuruq Aydan, Günəşdən.*

*Göy susur,*
*Yer susur,*
*Kainat susur.*
*Sükut içindədir sanki bu dünya,*
*Qəmdən köynək geyib bu həyat susur.*

*Elə bil güllərin içində yatıb,*
*Cismani yoxluğu səbrimi kəsir.*
*Ruhu mələklərlə əl-ələ verib,*
*Səs olub, söz olub bizimlə gəzir.*

*Götürün üstündən «ölüm» sözünü!*
*Heydər varlığıdır xalqın, millətin,*
*Heydər Azərbaycan, türk dünyasıdır,*
*Ölməzlik rəmzidir əbədiyyətin!*

*Ey dərdli Vətənim, başın sağ olsun!*
*Başınız sağ olsun ulu xalqımız!*
*Dahilər yaşayır, dahilər ölmür,*
*İllər bir-birini əvəz edəcək.*

*Qayğılı-qayğısız günlər keçəcək,*
*Mələklər Günəşə yazıb adını,*
*Heydər Günəş ilə qoşa çıxacaq!*
*Qurub yaratdığı Azərbaycana,*
*Haqqın gözləriylə yenə baxacaq!*

*Nə qədər həyat var Azərbaycanda,*
*Əbədiyyət adlı Ay var, Günəş var.*
*Heydərin amalı yaşayacaqdır,*
*Bu müqəddəs adı, şərəfli adı,*
*İlham inam ilə yaşadacaqdır!*

**Əhməd İSPƏR**
Cəlilabad